**UOT 75**
**https://doi.org/10.59849/2311-8482.2025.1.273**

**RÜXSARƏ HÜSEYNOVA***

# MİLLİ SƏRVƏTİMİZ – YALLILAR

*Məqalədə Azərbaycan xalqının milli sərvəti olan “Yallı” rəqsi, onun ifa tərzi, növləri və böyük emosional təsir qüvvəsinə malik olmasından söhbət açılır. Həmrəylik və saflıq rəmzi “Yallı”larımız xalqımızın yaşam tərzini, adət-ənənəsini, mübarizliyini və birliyini özündə əks etdirir. Məqalədə yallının bəstəkar yaradıcılığında istifadəsi, həmçinin Köçəri, Tənzərə kimi yallılarımızın YUNESKO-nun Təcili Qorunma Siyahısına daxil edilməsi və bununla da müstəqil Azərbaycan diplomatiyasının və mədəniyyətinin mühüm nailiyyət əldə etməsindən bəhs olunur.*

***Açar sözlər:*** *folklor musiqisi, rəqs, yallı*

## Giriş

Azərbaycan xalqının uzun əsrlər boyu cilalanmış, püxtələşmiş zəngin musiqi xəzinəsi vardır. Muğam, aşıq musiqisi, xalq rəqsləri və el havaları musiqimizin bünövrəsi, milli mədəniyyətin ayrılmaz tərkib hissəsidir. Azərbaycanda musiqi sənəti uzun əsrlərdən bəri özünəməxsus inkişaf yolu keçmiş ənənələrə söykənir. Hələ qədim zamanlardan başlayaraq, musiqi xalq arasında geniş yayılmış, xalqın ağır zəhmətini yüngülləşdirmək, dərd-qəmini azaltmaqda onlara kömək olmuş, xalqın cəsur oğul və qızlarını öz vətəninin azadlığı uğrunda düşmənlərə qarşı mübarizəyə ruhlandırmışdır. Müxtəlif xarakterli mahnı və rəqslərdə Azərbaycan xalqının arzu və istəkləri, vətənə olan sonsuz məhəbbəti, müasir həyata münasibəti tərənnüm olunmuşdur. Alimlərimiz haqlı olaraq folkloru mənəviyyatımızın güzgüsü, milli dəyərlərimizin və adət-ənənələrimizin göstəricisi, mədəni sərvətimizin ayrılmaz tərkib hissəsi sayır. Xalqın içində yaranan və şifahi şəkildə ağızdan-ağıza, yaddaşdan-yaddaşa ötürülən xalq musiqi nümunələri kollektiv əməyinin nəticəsi olaraq, zəngin, bədii sənət inciləridir.

## Əsas məzmun

Azərbaycan xalq musiqisinin, musiqi folklorumuzun çox geniş yayılmış janrlarından biri də rəqslərdir. Rəqslər milyon illərdən bəri həyat tərzimizdə, mədəniyyətimizdə özünə layiqli yer tutan qədim incəsənət növüdür. Rəqs sənətinin çoxəsrlik tarixə malik olması xalq rəqslərimizin əsas qollarından biri sayılan və rəqs sənətinin ilkin forması olan Yallının yaranması ilə bağlıdır. Yallıya bənzər dairəvi ayinlərin qədim dövrlərdən mövcud olmasının əyani sübutu Qobustan qayaüstü rəsmləridir. Ümumiyyətlə, yallının qədimliyi haqqında məlumatlar müxtəlif mənbələr, arxeoloji qazıntılar, tarixi ərazilər vasitəsilə əldə edilmişdir. Belə ki, Qobustan əsrazisindəki qayaüstü təsvirlərlə yanaşı, Ordubad ərazisində yerləşən Gəmiqaya dağındakı dövrə vurub rəqs edən insan şəkilləri, arxeoloji qazıntılar zamanı əldə edilmiş bir çox əşyaların üzərindəki yallı oynayan insan rəsmləri, alimlərin, tarixçilərin uzun illərlə apardıqları elmi araşdırmalar mərasim rəqsi olan Yallının tarixinin eramızdan əvvəl V minilliyə aid olduğunu sübuta yetirmişdir.




“Yallı” sözünün özü də çox qədimdən mövcud olaraq tədqiqatçılar tərəfindən müxtəlif cür izah olunmuşdur. Bəzi tədqiqatçılar ”yal” sözünü dağın yüksəkliyində yerləşən düzəngah mənası

daşıdığını qeyd etmişdir. Təsadüfi deyil ki, Azərbaycanın bir çox əraziləri məhz bu cür adlanır: "Sarı yal", Gödək yal", Uzun yal", "Cıdır yalı", "Oyuqlar yalı" və . Araşdırmaçılar "yal" sözünün çərgə mənasını verdiyini də qeyd edirlər. Çünki yallı oynayanlar rəqsi bir və ya bir neçə cərgədə düzülərək ifa edirlər. Bəzi mənbələrdə isə onun "al-hal", "yan" (yanmaq, od, alov) kökündən törənərək birlik və atəş mənasını verdiyi söylənilir. Bu fikir də ibtidai insanların uğurlu ovun sevincini yaşamaq üçün tonqal qalayıb onun ətrafında ələ- ələ tutaraq dövrə vurub rəqs etmələri ilə bağlı yaranmışdır. Dilçi-alim M.Seyidov da yallı sözünün yal-od, alov, od sözündən götürülməsini, həmçinin günəşlə bağlı olmasını qeyd etmişdir.

Yallı həmrəylik və saflıq rəmzidir. Yallılar xalqımızın yaşam tərzini, adət-ənənəsini, mübarizliyini və birliyini özündə əks etdirir. Onu ifa edənlər kollektiv surətdə öz sevinc və duyğularını, bacarıq və istedadlarını təmsil edirlər. Azərbaycanın görkəmli bəstəkarı Əfrasiyab Bədəlbəyli "yallı" oyunu haqqında bu fikri təsiq etmişdir: "Çox intişar edən "yallı" forması bütün bir elin, bir obanın kollektiv surətdə öz sevinc duyğularını, bacarıq və istedadını təmsil edən əzəmətli bir yaradıcılığın parlaq təzahürüdür".

Qeyd olunduğu kimi, yallı cərgəyə düzülərək dəstə ilə ifa olunur. Oyun zamanı yallıya` kollektivin önündə gedən və xalq arasında "yallıbaşı" adlanan iştirakçı-rəqqas rəhbərlik edir. Yallıbaşı əvvəldən axıradək rəqsin ümumi gedişinə, iştirakçıların birgə, nizamlı hərəkətinə, bütün iştirakçılar tərəfindən hər bir ayaq hərəkətinin eyni qaydada yerinə yetirilməsinə, rəqsin bir yerdə başlayaraq, eyni vaxtda da sona yetməsinə nəzarət edir. İştirakçılar da ciddi sürətdə ona tabe olur və onun etdiyi hərəkətləri təkrar edirlər. Yallıbaşıdan sonra gələn iştirakçı (II rəqqas) "müavin" və dəstənin axırında duran sonuncu iştirakçı isə "ayaqçı" adlanır. Yallını oynayarkən yallıbaşı və ayaqçının əlində alovlanan odu təsvir edən qırmızı yaylıq olur. Onlar əllərini yuxarı qaldırıb yallının ritminə uyğun olaraq yaylığı yelləməklə dəstənin əvəlinin və axırının harda olduğunu bildirir və həmçinin yallının tempini, hərəkəti nizamlayırlar. Lakin sözsüz ki, kollektiv şəkildə oynanılan bu kütləvi rəqsin, yəni, hər bir yallının öz oyun qaydası və gediş hərəkətləri vardır. Yallıda iştirakçıların sayı dəqiq olmur. Adətən yallı dəstəsinə düzülənlərin sayı 10-15 nəfər olur. Lakin bəzən toy şənliklərində, bayram mərasimlərində iştirakçıların sayı hətta 40-50 (və bəzən daha artıq) nəfərə çatır.

Tədqiqatçı B.Hüseynli yallıları xoreoqrafik məzmun baxımından iki yerə bölmüşdür. Bunlardan birincisi süjetli yallılardır ki, onları oyun-yallıları adlandırırlar. Süjetli oyunlar müəyyən hadisəni təsvir etdiyinə görə teatrlaşmış xalq oyunlarına bənzəyir. Bu rəqslərdə zarafat, gülüş üstünlük təşkil etsə də, digər yallılarda ifa və yeriş elementləri diqqəti çəkir. «El yallısı», «Çöp-çöpü», «Qaz-qazı», «Köçəri», «Qaladan-qalaya» belə yallı nümunələridir. İkinci növ yallılar rəqs-yallıları adlandırılır. Bu növ yallılar isə, müəyyən əhval-ruhiyyəni, xüsusən qəhrəmanlığı, gümrahlığı, gəncliyi və cəldliyi tərənnüm edən rəqs-yallılardır. Bu yallılara "Dönə yallı", "Siyaqutu", "Tənzərə", "Ürfanı" və s. yallılar daxildir. Hər bir yallı növü də xüsusi məna və məzmun daşıyıb, xalqımızın igidliyini, qorxmazlığını, həmişə haqqa-ədalətə və sülhə can atmasını özündə yaşadıb.

Yallı həm kişilər, həm də qadınlar tərəfindən oynanılır. Çox vaxt rəqs kişi və qadınların birlikdə, yəni qarışıq şəkildə ifası ilə təqdim olunur. Oyun zamanı iştirakçılar bir-birinin çeçələ barmağından tutur və ya qollarını yana geniş açmaqla əllərini digər iştirakçının çiyninə qoyur və dairə şəkli əmələ gətirərək hərəkət edirlər. Kütləvi rəqs olan yallılar adətən açıq havada oynanılır.

Yallılar həm mahnı ilə, həm də instrumental müşayiətlə ifa edilir. Belə ki, yallılar sintetik xarakter daşıyaraq, özündə mahnı, rəqs və instrumental ifanı cəmləşdirir. Mahnı ilə oynanılan yallıların sözləri xalq tərəfindən yazılır və mətninin əsasını qoşma və bayatılar təşkil edir. Yallılarımızın ifasında isə qədim musiqi alətlərimiz olan zurna, züyçü (dəmkeş) və çubuqla çalınan nağaradan istifadə edilir. Zurnanın şaqraq səsi, nağaranın nizamlanmış sabit ritminin müşayiəti altında əvvəl ağır, sonra isə sürətini artıraraq ən yüksək emosional zirvəyə qalxan yallı son dərəcə möhtəşəm bir atmosfer yaradır. Nağaraya vurulan kəskin zərbələr oynayanları canlandırır, şuxlandırır və oyunun ritmik şəkildə davam etməsinə köməklik göstərir. Forma cəhətdən yallılarda bir, iki, üçhissəlilik özünü göstərir və hər bir hissə tempinə görə fərqlənir. Yəni, onda tempin dəyişməsi ağır tempdən cəld, iti tempə istiqamətlənir: I hissə ağır, asta, II hissə orta tempdə, III hissə isə cəld, iti tempdə oynanılır. Yallılarda adətən 6/8, 3/8 ölçülərindən istifadə edilir.

Alimlərin fikrincə, oğuz ellərinin həyat tərzi, məişəti, dünyabaxışı yallılarda rəqslə, ritmik hərəkətlərlə ifadə olunub. Yallı insanı coşduran musiqisi ilə, möhtəşəm ritmik ahəngi ilə çox böyük emosional təsirə malikdir. Onu dinləyərkən insanın qəlbində böyük qürür hissi, sevinc, coşğunluq duyğuları yaranır. Belə ki, yallı bizim qürur mənbəyimiz, xalqımızın qəhrəmanlıq, mübarizlik, cəsurluq rəmzidir. Təsadüfi deyil ki, Azərbaycan bəstəkarları öz yaradıcılıqlarında xalq musiqisinin müxtəlif janrları kimi yallıya da müraciət edərək bənzərsiz sənət nümunələri yaratmışdırlar. Ü.Hacıbəyov "Koroğlu", M.Maqomayev "Nərgiz" operalarında, S.Hacıbəyov "Gülşən" baletində, C.Cahngirov "Azad" operasında xalqla əlaqədar olan kütləvi səhnələrdə yallıdan istifadə etmişdirlər. Milli mənəvi sərvətimizin inciləri sayılan yallılarımızın toplanması, nota salınması və nəşri sahəsində də böyük işlər görülmüş və bu da onun təbliği və yayılması və gələcək nəsillərə mənəvi miras kimi ötürülməsi yolunda əhəmiyyətli addım olmaqla yanaşı, həmçinin tədqiqat materialı kimi istifadə edilməsi üçün də əvəzsizdir.

Yallılar qədim dövrlərdən bəri Azərbaycanın müxtəlif bölgələrində, xüsusilə Naxçıvanın qədim Şərur ərazisində geniş yayılmışdır. Bu bölgədə əsasən toy mərasimləri və el şənliklərində, xüsusən "Novruz" bayramında uşaqlardan böyüyədək hər kəs dəstə tutaraq yallı gediblər. Yallı bu torpağın qədimlik rəmzi və beşiyi hesab olunur. Şərurda yallı şifahi şəkildə xalq tərəfindən yaranaraq, böyük inkişaf yolu keçmişdir. Hələ keçən əsrin əvvəllərində bu bölgədə ilk rəsmi yallı ansamblı fəaliyyət göstərmiş, 1938-ci ildə isə Moskvada keçirilən Ədəbiyyat və İncəsənət ongünlüyündə iştirak edərək böyük uğur qazanmışdır. Artıq uzun illərdir ki, Şərur yallı ansamblı həm ölkə daxilində, həm də xarici ölkələrdə keçirilən bir sıra tədbirlərdə, folklor festivallarında qədim yallımızı təbliğ edir. Hal-hazırda Şəruruda öz yüksək professional səviyyəsilə seçilən bir neçə yallı kollektivi fəaliyyət göstərir və bu möhtəşəm rəqs xalq arasında, müxtəlif yaş kateqoriyalarını əhatə edən rəqs kollektivləri tərəfindən yaşadılır. Yaradıcılıq və yaş baxımından bir-birinin davamçısı olan – 1981-ci ildə "Xalq yallı ansamblı" adını almış "Şəruru xalq yallı ansamblı", "Nurani" və "Şərur qönçələri" ansamblları öz ifaları ilə böyük şöhrət qazanmış və iştirak etdiyi müxtəlif tədbirlərdə diplom və mükafatlara layiq görülmüşdür.

Tədqiqatçıların araşdırmalarına əsasən Şərurda 100-dən artıq yallı növü vardır. Bunlardan "El yallısı", "Ağır yallı", "Arzumanı", "Siyaqutu", "Urfanı", "Tello", "Dəlilo" , "Qaladan-qalaya", "Hoynare", "Tənzərə", "Köçəri", "Qazı-qazı" yallısı və s. xalq arasında geniş yayılmış və sevilən yallılardır.

Yallı Azərbaycan xalqının milli mədəni sərvətidir. Yallı bizim keçmişimizi özündə yaşadan və mədəniyyətimizi gələcəyə daşıyan ən qiymətli xəzinəmizdir. Ulu öndər Heydr Əliyevin təbirincə desək, yallı "Naxçıvanımızın tacıdır". Bu xəzinənin qorunması və yaşadılması sahəsinə dövlət tərəfindən böyük qayğı və diqqət yetirilir. Buna 2009-cu il 7 fevral tarixində "Naxçıvan Muxtar Respublikasında xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" sərəncam, həmçinin Muxtar Respublikamızda 2012-ci ilin "Milli dəyərlər ili" elan olunması bir daha sübutdur. Sevindirici haldır ki, 2018-ci il 26 noyabr-1dekabr tarixlərində Mavriki respubliksının paytaxtı Port Luis şəhərində YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökmətlərarası Komitəsinin növbəti 13-cü sesiyasında qəbul edilmiş qərarla bizim Köçəri, Tənzərə kimi yallılarımız YUNESKO-nun Təcili Qorunma Siyahısına daxil edilmişdir. Bu rəqslər Azərbaycanın hər bir bölgəsində xalq tərəfindən sevilən və müntəzəm oynanılan rəqslərdir. Tədqiqatçı R.Bəhmənli "Köçəri" yallısına verilən adın mənasını bu cür izah etmişdir: "əsasən heyvandarlıqla məşğul olan köçəri tayfalrı öz yaşayışlarını təmin etmək üçün mal-qaralarını, qoyun sürülərini yay aylarında dağlara, yaylaqlara , qışda isə isti bölgələrə, "aran" rayonlarına köçürüdülər. Yəni, yallıya verilən ad "köç", "köçmək" mənasını daşıyır". Yaradıcıları köçərilər olmuş "Köçəri" yallısı 3 hissəli, asta və sürətli hissələrin növbələşməsindən ibarət olmuşdur. Onda I və III hissələr cəld, təntənəli, II hissə isə lirik xarakter daşıyır. R.Bəhmənlinin qeyd etdiyinə görə "Köçəri" yallısı ayaq hərəkətlərinin mürəkkəbliyinə görə yalnız kişilər tərəfindən oynanılır. Lakin bəzi mənbələrdə rəqsin kişilərin və qadınların ya ardıcıl olaraq, ya da bir qadın, bir kişi düzülüşündə ifa edilməsi də qeyd edilir. "Köçəri" yallısında yallıbaşı əlinə çubuq alaraq oynayır:




"Tənzərə" - yarı zər, yarı bəzək-düzək deməkdir. Mənbələrdən alınan məlumata görə bu rəqs qədim dövrlərdə saraylarda, toy məclislərində varlı saray xanımları tərəfindən oynanılmışdır. Rəqsi ifa edən qadınlar qızıl bəzək-düzəklər - boyunbağı, muncuq, sırğa, üzük və başqa cəvahiratlarını taxıb oynayaraq, əsasən gözəllik, dəbdəbə və zənginliyi tərənnüm etmişdirlər. Rəqs zamanı bu bəzək əşyaları silkələnərək zurna və davulun səsilə ritmik ahənglik yaratmışdır. Tənzərə rəqsi iki hissədən ibarətdir və bu rəqsi ifaçılar çeçələ barmaqlarını bir-birilə birləşdirərək ifa edirlər. Üç addım irəli gedərək sol ayaqlarının ucunu yerə vurur, həmin andan sonra, yenə də sol ayağı irəli atıb bir anlığa onun üzərində durur, üç kiçik addım geriyə hərəkət etməklə ikinci hissədə bir az iti templə birinci hissədəki hərəkətlərini təkrar edirlər. Tədqiqatçı Bayram Hüseynlinin notlaşdırdığı "Tənzərə" yallısı:



**Nəticə**

Rəqslərimizin mahir ifaçı, xalq artisti Əminə Dilbazi yallıların ölkəmizin dünyaya tanıdılmasında böyük rolunu vurğulayaraq bu rəqsin onda cəmləşən xalqımıza məxsus bütün xüsusiyyətləri- onun tarixini, mədəniyyətini bütün millətlərə çatdıra biləcək qüvvəyə malik olduğunu qeyd etmişdir. Dərin milli tarixi köklərə malik olan "Yallı" rəqsinin beynəlxalq miqyasa çıxarılması da azərbaycançılıq ideologiyasının təbliği baxımından çox əhəmiyyətlidir və müstəqil Azərbaycan diplomatiyasının və mədəniyyətinin mühüm nailiyyətidir.

Yallı qədim türk xalqının, azərbaycanımızın mənəvi emblemi və xalqımızın azərbaycançılıq simvoludur. Onu qoruyub yaşatmaqsa bizim mənəvi borcumuzdur.

## ƏDƏBİYYAT

1. Ə.Bədəlbəyli "Musiqi lüğəti". B.Elm.1969.s.248
2. R.Bəhmənli"Erməni plaqiatına məruz qalmış Qərbi Azərbaycan yallıları".B."İmza" 2022, səh.112

*Naxçıvan Dövlət Universiteti
E-mail: @mail:ruxsarah.ru

**Rukhsare Huseynova**

**OUR NATIONAL WEALTH – THE YALLIS**

The article discusses the Yalli dance, a national treasure of the Azerbaijani people, its style of performance, types and its great emotional impact. Our Yalli, a symbol of solidarity and purity, reflects the way of life, traditions, struggle and unity of our people. The article discusses the use of yallis in the composer's work, as well as the inclusion of our yallis such as Kochari and Tanzara in the UNESCO Emergency Protection List, and thus the significant achievement of independent Azerbaijani diplomacy and culture.

**Keywords**: *folk music, dance, yallı*

**Рухсаре Гусейнова**

**НАШЕ НАЦИОНАЛЬНОЕ БОГАТСТВО – ЯЛЛИ**

В статье рассматривается танец яллы, являющийся национальным достоянием азербайджанского народа, стиль его исполнения, виды и большое эмоциональное воздействие. Наш Яллы, символ солидарности и чистоты, отражает образ жизни, традиции, борьбу и единство нашего народа. В статье рассматривается использование яллы в творчестве композитора, а также включение таких наших яллы, как Кочари и Танзара, в Список ЮНЕСКО по защите от чрезвычайных ситуаций, и тем самым значительное достижение независимой азербайджанской дипломатии и культуры.

**Ключевые слова:** *народная музыка, танцы, яллы*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 11.01.2025**
**Son daxilolma tarixi:29.02.2025**